# İrsimizin tədqiqi və təbliği ictimai birliyinin dahi bəstəkar Fikrət Əmirovun anadan olmasının 100 illiyinin təşkili layihəsi çərçivəsində keçirilən tədbirlər haqqında

Dahi o insanlardır ki, onlar cismən dünyadan getdikdən sonra ruhən əbədiyaşardırlar. Çünki bu dahiliyi və əbədiyaşarlığı o insanlar öz sağlığında əməlləri və xidmətləri ilə qazanıblar. Bəlkə bu onların dünyaya gəlişinin əsas missiyası olub. Belə ki, onların nəyə qadir olacaqları Tanrı tərəfindən bəxş olunan bir varidatdır. Bunu fitri istedad da adlandıra bilərik. Çünki hər bir insanın istedadı ola bilər. Amma, fitri istedad daha qeyri-adi bir dəyərdir ki, o hər kəsə nəsib olmur. Elə isə dahilər Tanrı tərəfindən sonsuz sevgi ilə seçilərək qeyri-adi fitri istedadı olanlardır desək – onlara daha düzgün tərif vermiş olarıq. Amma, əslində dahilər haqqında ən mükəmməl fikri onların öz əməlləri deyir. Çünki onların əməlləri nəsillərlə qoşa addımlayaraq bütün zamanları qovuşdurmağa qadirdir. Belə ki, yaratdıqları və özlərindən sonra yadigar qoyan əsərləri, əməlləri hər bir zaman üçün aktualdır, yəni bütün nəsillərin mənəvi dünyasını zənginləşdirməyə, onların etik-estetik zövqünü, bədii təfəkkürünü formalaşdırmağa və bu kimi yüksək ali kriteriyalara layiq amillərdir. Hətta, dahilərin əməlləri və əsərləri özlərindən sonra gələn nəsillər üçün də müxtəlif elm və incəsənət sahələrinin inkişafında dəyərli bir mənbədir.

Dahilik və onun dəyərləri hər bir xalqın mənəvi sərvətidir. Bu mənada xalqımız xoşbəxtdir ki, onun qismətinə düşən dahilər yalnız öz xalqının deyil bəşəriyyətin dahiləri sırasında adları fəxrlə çəkilən əbədiyaşar şəxsiyyətlərdir. Bu şəxsiyyətlər içərisində Fikrət Əmirovun da adı xüsusi ehtiramla yad olunur. Çünki o da dahi simalardandır. Onun dahiliyinin təzahürü olaraq bəstəkarın dəyərli fikirlərindən biri düşür yadıma.

> O, yazır: "İstedad bir aləmdir, zəhmət bir aləm. Bu iki aləm qovuşanda milli sənət ümumbəşəri sənət səviyyəsinə yüksəlir". Məhz bu vacib amilləri öz yaradıcılığına tətbiq edən Fikrət Əmirov sənətin ümumbəşəri zirvəsinə yüksələrək dahilərin sırasına qoşuldu. O, indi dünya şöhrətli bir dahi olaraq öz musiqisi ilə dünya sənətsevərlərinin də zövqünü və ruhunu öxşayır.

Vaxtilə dünya şöhrətli dirijor Leopold Stakovski bəstəkara məktubunda belə yazmışdı: "Biz Sizin simfonik muğamlarınızı Xyustonda və Texasda ifa edərkən tamaşaçılar əsərlərinizə böyük maraq göstərdilər. Hörmətli, cənab Əmirov, Sizin əsərlərinizi orkestr çox gözəl qəbul etdi".

Amerikalı dirijorun belə dəyərli fikirlərinə bənzər neçə-neçə dünya musiqiçilərindən misal gətirə bilərik. Amma, deyirlər ki, sənətkar haqqında ən yaxşı sözü onun sənəti deyir. Odur ki, Fikrət Əmirov musiqisi ən yüksək və dolğun fikirlərin mənbəyidir. Bu musiqi və onun sahibi də ölməz və əbədidir. Təbii ki, bu əbədiyaşar sənətkarın irsini yaşatmaq bizim də mənəvi borcumuzdur. Əslində bu bizim həm də bir peşəkar olaraq başlıca vəzifəmizdir ki, bunun da əsas qayəsi Fikrət Əmirov irsinin əbədiyaşlığıdır.

Nəhayət, 2022-ci il Fikrət Əmirovun anadan olmasının 100 illiyidir. Bu barədə ölkə Prezidentimizin sərəncamından irəli gələn tədbirlərə "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin layihəsi də qoşularaq öz töhfələrini verməyə çalışdı. Bu mənada Azərbaycan Respublikası Qeyri Hökümət Təşkilatlarına Dəstək Agentliyi "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin təqdim etdiyi "Dahi bəstəkar Fikrət Əmirovun anadan olmasının 100 illiyinə həsr olunan tədbirlərin təşkili" layihəsinə qrant ayıraraq tədbirlərin həyata keçirilməsinə maliyyə dəstəyi göstərdi. Fevral ayından etibarən 7 ay ərzində təşkilat üzvləri layihə çərçivəsində bir neçə tədbirlər həyata keçirdilər. Bu tədbirlərin hər birində Fikrət Əmirovun həyat və yaradıcılığı, bəstəkarın ölməz musiqisi təqdim olunub. Həmin tədbirlər haqqında:

20 fevral – 2022-ci il "Fəxri xiyabanda" bəstəkarın məzarını ziyarət edərək onun xatirəsini andıq. Tədbiri giriş sözü ilə açan sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor, Əməkdar incəsənət xadimi Nazim Kazımov Fikrət Əmirov haqqında xatirələrindən və onun Azərbaycan musiqi tarixindəki mövqeyindən söhbət açdı. Növbəti çıxış edənlər Əməkdar artistlər müğənni Təhmiraz Şirinov, bəstəkar Elza Seyidcahan, "Göyərçin" Təhsil Qeyri Hökümət Təşkilatının sədri Gülnarə Vəlixanova və digərləri Fikrət Əmirovun ölməz yaradıcılıq irsindən bəhs etdilər. Tədbirin sonunda çıxış edən sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi, "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin sədri Səadət Təhmirazqızı təşkilat adından iştirakçılara təşəkkür edərək "Dahi bəstəkar Fikrət Əmirovun anadan olmasının 100 illik tədbirlərinin keçirilməsi" layihəsinin növbəti tədbirlərindən bəhs edərək o, özünün Fikrət Əmirov haqqında yaradıcılıq işlərindən və bəstəkarın irsinə münasibətindən söhbət açdı. Həmin tədbir iştirakçıların xatirə fotosu ilə başa çatdı. Tədbir haqqında "Mədəniyyət" Televiziya Kanalında müxbir Ayşən Başirovanın geniş reportajı da təqdim olunub.







30 mart 2022-ci il –Azərbaycan Milli Konservatoriyasında "Azərbaycan bəstəkarlıq məktəbində Fikrət Əmirov fenomeni" adlı elmi konfrans keçirilib. Həmin konfrans barədə təşkilatın mətbuat katibi Fidan Nəsirovanın "Mədəniyyət" qəzetinin 6 aprel 2022-ci il tarixli №26 sayında məqaləsini nəşr olunub.

* * *





Fikrət Əmirov əslən Şuşalı olsa da o, Gəncədə doğulub. Belə ki, atası Məşədi Cəmil Əmirov gənc yaşlarından Şuşadan Gəncəyə köçmüş, bir müddət orada yaşayıb sonra musiqi təhsili almaq üçün Türkiyənin İstanbul şəhərinə gedib. Türkiyədə təhsilini başa vurduqdan sonra Məşədi Cəmil yenə də Gəncəyə qayıdır. O, Gəncənin musiqi həyatında fəal iştirak edir. Hətta, Gəncədə ilk musiqi məktəbinin açılması da məhz onun adı ilə bağlıdır. Belə ki, həmin məktəbin ilk direktoru məhz Məşədi Cəmil olub. Hal-hazırda isə o məktəb yəni Gəncə şəhər 1 nömrəli musiqi məktəbi Fikrət Əmirovun adını daşıyır. Beləliklə Gəncədə Fikrət Əmirovun anadan olmasının 100 illik yubileyinin keçirilməsi də bizim layihəmizin ən mühüm planı idi.

16 aprel 2022-ci ildə təşkilatımızın bu tədbiri də reallaşdı. Belə ki, Gəncə Regional Mədəniyyət İdarəsinə müraciətimiz əsasında Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında bəstəkarın yaradıcılığına dair ədəbi-bədii gecə keçirildi. Həmin tədbir ümummilli liderimiz Heydər Əliyevin Gəncədəki büstünə gül qoyma mərasimi ilə başladı. Həmin gün unudulmaz bəstəkarımız Qənbər Hüseynlinin də doğum gününə təsadüf etmişdi. Odur ki, bizim təşkilatın üzvləri və bizimlə Bakıdan Gəncəyə gedən nümayəndə heyəti də Qənbər Hüseynlinin xatirəsini onun büstü önündə yad etdik. Sonra Gəncədə uyuyan şəhidlərimizin məzarlarını ziyarət etdik. Nəhayət, axşam saatlarında tədbirimiz başladı. Bu tədbir barədə internet səhifələrində, saytlarda bir neçə məqalələr yazıldı. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 17 aprel 2022-ci il xəbər saytlarında yayımlanan yazılardan birini biz də olduğu kimi nazirliyin səhifəsindən qələmə alırıq.

## Fikrət Əmirov-100

*Bu il görkəmli bəstəkarımız Fikrət Əmirovun anadan olmasının 100 illik yubileyi ilə əlaqədar Respublikamızda bir sıra silsilə şəklində tədbirlərin keçiriləcəyi nəzərdə tutulub. Bu baxımdan Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin elan etdiyi kiçik qrant müsabiqəsi çərçivəsində qalib olmuş "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin birgə təşkilatçılığı və təşəbbüsü ilə əlaqədar olaraq aprel ayının 16-da Gəncə şəhərində "Dahi bəstəkar Fikrət Əmirovun 100 illiyinə həsr olunan tədbirlərin təşkili" layihəsinin bərpası baş tutdu.*

*Gəncə şəhərinə səfər etmiş təşkilatın nümayəndələri, Ü.Hacıbəyli adına BMA-nın rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli, Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi, Xalq artisti Murad Adıgözəlzadə, Milli Konservatoriyanın müəllim, professor heyəti, Gəncə İcra başçısı Niyazi Bayramov və nümayəndələri tərəfindən yüksək səviyyədə qarşılandı.*

*Aprelin 16-da bəstəkar, dillər əzbəri olan "Cücələrim" mahnısının müəllifi Qənbər Hüseynlinin yubileyi ilə əlaqədar tədbir keçirildi. Tədbirdə bəstəkarın nəvəsi çıxış edərək bütün qonaqlara təşəkkürünü bildirdi.*







*Tədbirdən sonra İcra başçısı ilə birgə şəhərə gəzinti baş tutdu. Burada Niyazi Bayramovun əhali ilə səmimi görüşü, onların hər bir problemlərindən xəbərdar olması bizi çox təəccübləndirdi. Şəhidlər Xiyabanında, vandal ermənilər tərəfindən dağıdılmış, darmadağın olmuş ərazidə bizimlə birgə olaraq öz fikirlərini bölüşdü. Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin nümayəndələri gözəl təəssüratlara görə Gəncə şəhərinin İcra başçısına və nümayəndələrinə öz dərin mnnətdarlığını bildirir.*

*Bununla yanaşı tədbirimizdə iştirakına görə Ü.Hacıbəyli adına BMA-nın rektoru, xalq artisti, professor Fərhad Bədəlbəyli, Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi, Xalq artisti Murad Adıgözəlzadə, Milli Konservatoriyanın müəllim, professor heyətinə də öz təşəkkürümüzü bildirir və bu layihənin davamlı olmasını arzulayırıq.*

* * *

Fikrət Əmirovun yaradıcılığı zəngin bir xəzinədir. Onun musiqisi yalnız insanların ruhunu, zövqünü oxşamır. Fikrət Əmirov musiqisi etik və estetik tərbiyənin də əsas mənbəyidir. Odur ki, uşaqların da məhz belə bir musiqi ilə böyüməsi onların milli ruhda tərbiyələnməsi üçün də bir zəmindir. Bu kriteriyaları əsas tutaraq Fikrət Əmirovun əsərlərindən ibarət Bakı şəhər musiqi məktəbləri şagirdlərinin ifaçılıq müsabiqəsini də keçirməyi planlaşdırmışdıq. Layihədə 2 gün nəzərdə tutulan bu tədbir may ayının 25 və 26-da həyata keçirildi. Tədbir Bakı şəhər Mədəniyyət İdarəsi rəhbərliyinin məsləhəti ilə Fikrət Əmirov adına 6 saylı 11 illik uşaq incəsənət məktəbində baş tutdu. Belə ki, 25 may 2022-ci il tarixində həmin məktəbdə münsiflər heyəti 80-ə qədər uşağın ifasını dinləyib, onlar arasında seçim et-



### Fikrət Əmirov adına "Gənc istedadlar" müsabiqəsi

Fikrət Əmirovun 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı dünya şöhrətli bəstəkarımızın irsini təbliğ, tədqiq və tədris edənlərə bu istiqamətlərdə yeni layihələr həyat keçirmək üçün zəmin oldu. Fikrət Əmirov musiqisi insanlara mənəvi zövq aşılamaqla, mənəvi qida verməklə bəhəm, həm də musiqi tədrisi üçün çox əhəmiyyətli yüksək bədii dəyərə malikdir. Balaca musiqiçilər onun əsərlərini ifa etməklə milli irsimizə daha dərindən bağlanırlar. "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin həyata keçirdiyi Fikrət Əmirov adına "Gənc istedadlar" müsabiqəsi də bu məqsədə xidmət edirdi.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəsteyi Agentliyinin maliyyə yardımı ilə reallaşan layihə çərçivesində 25-26 may tarixlərində F.Əmirov adına 6 nömrəli onbirillik İncəsənət məktəbində keçirilən müsabiqəyə Bakı şəheri üzrə 9-16 yaş aralığında 60-a yaxın şagird qatılmışdı.

Məktəblilərin çıxışlarını Əməkdar müəllim, professor, F.Əmirov adına məktəbin direktoru Adilə Yusifova (sədr), Əməkdar incəsənət xadimi, professor Telman Hacıyev, Əməkdar müəllim, professor Firəngiz Hacıyeva, Əməkdar artistlər Nuriyyə Hüseynova, Teranə Əliyeva, beynəlxalq müsabiqələr laureatı Nərgiz Kəngərli, Ü.Hacıbəyli adına BMA-nın elmi-tədqiqat laboratoriyasının əməkdaşı Fidan Nəsirova və "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin sədri kimi bu sətirlərin müəllifinin yer aldığı münsiflər heyəti qiymətləndirdi.

Müsabiqədə Qran-pri mükafatını S.Ələsgərov adına 1 nömrəli İncəsənət məktəbinin V sinif şagirdi İnci Həsənli qazandı. Bundan əlavə, F.Əmirov adına 6 nömrəli İncəsənət məktəbi, R.Hacıyev adına 15 saylı Musiqi məktəbi, T.Quliyev adına 12 nömrəli Musiqi məktəbi, Ə.Bakıxanov adına 6 nömrəli Musiqi məktəbi, A.Məlikov adına 11 nömrəli İncəsənət məktəbi və 33 nömrəli Musiqi məktəbini təmsil edən gənc istedadlar müsabiqədə 1-ci (5 nəfər), 2-ci (4 nəfər) və 3-cü (3 nəfər) yerlərə layiq görüldülər. Daha üç şagird fəxri fərmanla təltif olundu.

Onu da qeyd edək ki, müsabiqənin məhz Fikrət Əmirovun adını daşıyan məktəbdə keçirilməsi təsadüfi deyil. Bu il dahi bəstəkarın 100 illiyi ilə bərabər, bu tədris ocağının da 60 yaşı tamam olur. Beləcə, yubileyin yubileyə qarışdığı ildə "Gənc istedadlar" müsabiqəsi də bir tarixə çevrildi. Əminik ki, bu müsabiqə onun iştirakçısı olmuş hər bir şagirdin yaddaşında qalacaq.

Sonda layihənin həyata keçməsinə yaradılan şəraitə görə F.Əmirov adına 6 nömrəli onbirillik İncəsənət məktəbinin rəhbərliyinə və kollektivinə təşəkkürümüzü bildiririk.

**Səadət Təhmirazqızı**
**Əməkdar mədəniyyət işçisi**



dilər. 26 may 2022-ci il tarixində isə qaliblərin konserti və mükafatlandırma mərasimi oldu. Tədbir Azərbaycan Televiziyasının "Mədəniyyət" Kanalında, MTV – Televiziyasında və SPS Tv-də, eyni zamanda mətbuat səhifələrində də işıqlandırıldı. "Mədəniyyət" qəzetinin 8 iyun 2022-ci il tarixli nömrəsində nəşr olunan məqaləni diqqətinizə çatdırırıq:

* * *

Azərbaycan Respublikası Qeyri Hökümət Təşkilatlarına Dəstək Agentliyinə təqdim etdiyimiz "Dahi bəstəkar Fikrət Əmirovun anadan olmasının 100 illiyinə həsr olunan tədbirlərin təşkili" layihəsinə əsasən yubiley tədbirlərinin bir neçə bölgələrdə də keçirilməsi nəzərdə tutulmuşdu. Bu bölgələr içərisində Şəki və Qəbələ şəhərləri də qeyd edilmişdi. İyunun 9-da Şəkidə, 10-da isə Qəbələdə tədbirlərimiz baş tutdu. Bu tədbirlərin hər biri yerli Televiziyalarda və mətbuatda da işıqlandırıldı. "Mədəniyyət" qəzetinin 17 iyun 2022-ci il, 45-ci nömrəsində təşkilatın mətbuat katibi, musiqişünas, Ü.Hacıbəyli adına BMA-nın elmi işçisi Fidan Nəsirovanın məqaləsini diqqətinizə çatdırırıq.

## Fikrət Əmirovun 100 illik yubileyi Şəkidə və Qəbələdə

Bu il unudulmaz bəstəkarımız Fikrət Əmirovun anadan olmasının100 illik yubileyi qeyd olunur. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 2022-ci il 15 mart tarixli sərəncamı ilə bəstəkarın yubiley tədbirləri silsilə şəklində keçirilir. Azərbaycan Respublikası Qeyri Hökümət Təşkilatlarına Dəstək Agentliyinin maliyyəsi əsasında "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin təşkilatçılığı ilə dahi bəstəkar






Fikrət Əmirovun 100 illik yubileyinin təşkili layihəsi çərçivəsində bir neçə tədbirlər ictimaiyyətə təqdim olunmuşdur. Bu minvalla iyunun 9-da "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin təşkilatçılığı ilə Şəkidə bəstəkarın 100 illik yubileyi Şəki Dövlət Regional Kollecində keçirildi. İlk olaraq Kollecin direktoru Sərdar Şərifov çıxış edərək Fikrət Əmirov haqqında öz fikirlərini bildirdi və sonra sözü "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin sədri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mə-





dəniyyət işçisi Səadət Təhmirazqızına təqdim etdi. Səadət Təhmirazqızı "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin Fikrət Əmirovun 100 illik yubileylərinin keçirilməsinə dair layihələrindən, öz gördükləri işlərindən söhbət açdı və sonra onun ssenarisi əsasında Azərbaycan Telefilm Yaradıcılıq Birliyində çəkilən "Fikrət Əmirov" filmi nümayiş olundu. Filmin nümayişindən sonra isə Şəki Dövlət Regional Kollecinin tələbələrinin ifasında Fikrət Əmirovun əsərləri səsləndi. Belə ki, Cavadova Türkanın ifasında Prelüd №2, Mehdiyev Emilin tar alətində ifa etdiyi (müşayiət edir Həsənova Gülnar) "1001 gecə" baletindən "Oxatanların rəqsi", qarmonda Osmanlı Elvinin ifasında (müşayiət edir Məmmədova Həvva) "Göygöl", Həşimova Səkinənin ifasında Ekspromt №2, kamançada Məmmədova Gulnurun ifasında "Sevil" operasından Sevilin ariyası, skripkada Yusifli Şəbnəmin ifasında (müşayiət edir Hacıəhmədzadə Aygün) "Sevgi rəqsi", Qəşəng Fətəliyevanın ifasında (müşayiət edir Mustafayeva Səma) "Sevil" operasından Dilbərin ariyası, balabanda Salahov Eminin ifasında (müşayiət edir müəllim Hacırəjiqli Həvva) "Laylay", Allahverdiyeva Şəbnəmin ifasında (konsertmeyster Lətifova Türkan, dirijor Hümmətova Elnar) "Gözün aydın" musiqili komediyasından Leylinin mahnısı və qızların xoru səsləndi.

"İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin təşkilatçılığı ilə Fikrət Əmirovun 100 illiyinə həsr olunan növbəti tədbir iyunun 10-da Qəbələ Mədəniyyət Mərkəzində keçirildi. Tədbirdə "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin sədri sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı və rəhbərlik etdiyi təşkilatın heyəti, İsmayıllı Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi, Qəbələ Rayon üzrə nümayəndə Nargilə Qafarova, o cümlədən Qəbələ Mədəniyyət Mərkəzinin direktoru Malik Ağayev, Qəbələ İncəsənət məktəbinin direktoru Əhməd Qəndiyev və rəhbərlik etdiyi tədris müəssisəsinin müəllim və şagird heyəti, Qəbələ Tarix Diyarşünaslıq Muzeyinin direktoru Bəxtiyar Vəliyev və media nümayəndələri iştirak edirdilər. Azərbaycan Respublikasının Qeyri Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi və "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilən tədbiri İsmayıllı Regional Mədəniyyət idarəsinin baş məsləhətçisi, Qəbələ Rayon üzrə nümayənədəsi Nargilə Qafarova açaraq, əvvəlcə iştirakçıları salamlayıb, sonra isə tədbiri aparmaq üçün sözü Səadət Təhmirazqızına verdi. O çıxış edərək bildirdi ki, dahi bəstəkar Fikrət Əmirovun anadan olmasının 100 illiyinə həsr olunan tədbirlər dövlət başçımızın müvafiq sərəncamına əsasən həyata keçirilir. Sonra Səadət Təhmirazqızı müəllifi olduğu "İlham Əliyev və musiqi mədəniyyəti" kitabını Qəbələ Mədəniyyət Mərkəzinə hədiyyə edib. Tədbirdə Qəbələ İncəsənət məktəbinin müəllim və şagirdlərinin ifasında Fikrət Əmirovun əsərlərindən müəyyən nü-







munələr təqdim olunub və Fikrət Əmirova həsr edilmiş filmə tamaşa edilib. Qeyd edək ki, tədbirdə Fikrət Əmirov yaradıcılığı barədə fəal fikir mübadiləsi aparılıb. İştirakçılar mövzu üzrə müəyyən mülahizələr söyləyərək, bəstəkarı Azərbaycan mədəniyyətinə böyük töhfələr vermiş dahi şəxsiyyət kimi səciyyələndiriblər.

Beləliklə, "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin dahi bəstəkar Fikrət Əmirovun 100 illiyinə həsr olunan tədbirlərin təşkili layihəsi çərçivəsində qədim tarixi yurdlarımız olan Şəki və Qəbələdə keçirilən tədbirləri ictimaiyyət tərəfindən də böyük sevgi və rəğbətlə qarşılandı. Bu bir daha bəstəkarın ölməz musiqisinin və əbədiyaşarlığının ifadəsidir.

* * *

Layihə çərçivəsində növbəti tədbir 15 iyun 2022-ci il tarixində Sumqayıt şəhərində 28 may Mədəniyyət evində keçirildi. Tədbirin təşkilində Sumqayıt Regional Mədəniyyət



İdarəsinə müraciətimiz əsasında şəhər musiqi məktəblərinin müəllim və şagird heyəti və digər müəssisələrin əməkdaşları toplaşmışdı. Tədbir haqqında Sumqayıt şəhərində fəaliyyət göstərən və bütün Respublikaya yayımlanan Dünya Tv-nin əməkdaşları ətraflı sujet hazırlamış və mətbuatda yazı dərc olunmuşdu. Məqalə "Mədəniyyət" qəzeti 22 iyun 2022-ci il №46-da dərc olunmuşdur.

* * *

"Dahi bəstəkar Fikrət Əmirovun 100 illiyinə həsr olunan tədbirlərin təşkili" layihəsi çərçivəsində nəzərdə tutulan tədbirlər, konfranslar nəinki Bakı şəhərində, hətta bölgələrimizdə Sumqayıt, Gəncə, Qəbələ, Şəkidə də çox böyük müvəffəqiyyətlə keçirildl. Təbii ki, bu tədbirlər barədə İctimai Birliyin sədri sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı ictimaiyyətə geniş məlumat vermişdi. İctimai Birliyin əsas məqsədi də ictimaiyyətdə, xüsusən də gənclər və yenmiyetmələr tərəfindən musiqi mədəniyyəti uğrunda maarifləndirici addımlardır.

Silsilə şəklində davam etdirilən "Dahi bəstəkar Fikrət Əmirovun 100 illiyinə həsr olunan tədbirlərin təşkili" layihəsi çərçivəsində nəzərdə tutulan sonuncu tədbir 30 avqust 2022-ci ildə Füzuli rayonu Horadiz qəsəbəsində Muğam Mərkəzində keçirildi.

Tədbiri "İrsimizin tədqiqi və təbliği" İctimai Birliyinin sədri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət



Təhmizqızı çıxışı ilə açdı. O, layihə haqqında ətraflı çıxışı ilə tamaşaçıları məlumatlandırdı. Daha sonra, Mərkəzin direktoru Elxan Quliyev Fikrət Əmirov yaradıcılığı ilə bağlı maraqlı faktlarla tamaşaçıları məlumatlandırdı.

Çıxışlardan sonra, Səadət Təhmirazqızının ssenarisi əsasında çəkilmiş "Fikrət Əmirov" adlı sənədli film nümayiş olundu. Fikrət Əmirov əsərlərindən ibarət musiqili ifalar sürəkli alqışlarla qarşılandı. Tədbirdə Füzuli İcra Hakimiyyətinin, Mədəniyyət şöbəsinin və Horadiz Muğam Mərkəzinin əməkdaşları iştirak edirdilər. Sonda İctimai Birliyin sədri Səadət xanım çıxış edərək Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlıya və tədbirin təşkil olunmasında xidməti olanlara və eyni zamanda belə bir layihənin həyata keçirilməsində dəstək olduğuna görə Azərbaycan Respublikası Qeyri Hökümət Təşkilatlarına Dəstək Agentliyinin rəhbərliyinə və əməkdaşlarına öz minnətdarlığını bildirdi. O, qeyd etdi ki, Fikrət Əmirovun ölməz musiqisi bəstəkarı əbədi yaşadaraq onu daim nəsillərə tanıdacaq.

**Fidan NƏSİROVA**
*musiqişünas*
*Ü.Hacıbəyli adına BMA-nın elmi işçisi*